# Ölkədə sabitliyə və tərəqqiyə zəmin yaratmış qayıdış

***Sizin müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatlığı haqlıdır və təqdirəlayiqdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir.***

***Ulu öndər Heydər Əliyevin "91"- lərin müraciətinə cavabından***



***Biz hamımız xatırlayırıq ki, 1993-cü ildə naxçıvanlılar Heydər Əliyevi buradan Bakıya buraxmaq istəmirdilər və mən bilirəm ki, o da Naxçıvandan böyük narahatlıqla ayrılmışdı. Ancaq o da lazım idi. O vaxt Bakıya gəlməsəydi, bu gün Azərbaycanın müstəqilliyindən söhbət gedə bilməzdi. Ümumiyyətlə, Azərbaycanın gələcəyini təsəvvür etmək mümkün deyildi. Bir adam, ulu öndər hansı ki, nə ordusu var idi, nə dəstəsi var idi, müdrikliyi, təcrübəsi və Azərbaycan xalqının ona olan hədsiz inamı sayəsində ölkəmizi o bəlalardan qurtardı və bu gün Azərbaycan dünya miqyasında önəmli ölkəyə çevrilibdir.***

***İlham ƏLİYEV Azərbaycan Respublikasının Prezidenti Naxçıvan, 4 iyun 2008-ci il***

***Azərbaycanın ötən əsrin son onilliyində öz dövlət müstəqilliyini bərpa etməsi dünyanın müxtəlif ünvanlarındakı bədxahlarımızı ciddi şəkildə narahat edirdi. Ona görə də gənc müstəqil dövlətimiz gah açıq, gah da gizli hücumlara, təzyiq və təhdidlərə məruz qalırdı. Üstəlik, iki əsrdən artıq müddətdə torpaqlarımıza sahib olmaq üçün min bir fitnə-fəsad törədən ermənilər də artıq hərbi işğalçılıq yolu tutmuşdular.***

Ancaq bəla və problemlərimiz bunlarla qurtarmırdı. Müstəqilliyin ilk illərində ölkəyə rəhbərliyin gah imperialist qüvvələrə meyilli şəxslərin, gah da tamamilə diletant olan, siyasətə küçələrdən gələnlərin əlinə keçməsi dövlətçiliyimizin təkrar itirilməsi təhlükəsini yaxınlaşdırırdı.

İndi bəzi siyasətçilər yazırlar ki, həmin illərdə Azərbaycan dövlətçiliyinin taleyi Allahın ümidinə qalmışdı.... Allah isə bu xalqa Heydər Əliyev kimi müdrik lider, siyasi rəhbər, təcrübəli öndər bəxş etmişdi. Sadəcə olaraq, bədxahlarımızın əlində oyuncağa çevrilmiş insanlar xalqın o böyük oğluna qarşı çoxsaylı fitnə-fəsadlar qururdular ki, ölkəmizin bu müstəqilliyi də 70 il əvvəlkinin taleyini yaşasın.

Nəticə isə fərqli oldu. Bədxahlarımız saydıqlarını saysalar da, Azərbaycan ziyalıları xalqı bəlalardan xilas etmək üçün ulu öndərə göndəriləcək müraciəti hazırladılar. 1992-ci il oktyabrın 16-da imzalanan həmin müraciətdə deyilirdi: "Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz. Bütün çətinliklərə baxmayaraq, hələ Baltik respublikalarında belə qalan rus ordusunun Naxçıvandakı hissələrini Siz çox bacarıqla, qaydaqanunla yola saldınız. Qardaş Türkiyə və İranın köməyi ilə Naxçıvan əhalisini dözülməz vəziyyətdən çıxarırsınız. İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz!" Həyatının bütün dönəmlərində daim xalqın yanında olan ümummilli lider ziyalıların həmin müraciətinə biganə qalmadı və məhz xalqın iradəsi əsasında modern siyasi təşkilat – Yeni Azərbaycan Partiyası yaradıldı. Ancaq bununla iş bitmirdi. Ölkə od-alov içərisində idi. İyunun 4-də Gəncədə qardaş qanı tökülmüşdü. Ermənilərin işğalçılıq hücumları daha geniş miqyas alırdı. Xalqı aclıq və səfalətdən çıxaracaq heç bir addım atılmırdı. Daha doğrusu, hakimiyyətdə xalqın mənafeyinə uyğun addım ata biləcək siyasi fiqur yox idi. Yəni Heydər Əliyevin Naxçıvandan Bakıya qayıtması Azərbaycan xalqı üçün taleyüklü, həyati əhəmiyyətli fakt ola bilərdi... və oldu. 1993-cü il iyunun 9-da böyük xilaskarı Bakıya gətirən təyyarə Binə Hava Limanına enəndə Heydər Əliyev dühasının miqyasına bələd olanlar qurban kəsmişdilər.

... O zaman mən Dövlət radiosunun Xəbərlər baş redaksiyasında çalışırdım. Teleşirkət sədrinin müavini Mövlud Süleymanlı məni otağına çağıraraq dedi: " Heydər Əliyev bu gün ( iyunun 9-da – İ.M.) İstiqlaliyyət küçəsində gəzib. Saat 5-in xəbərlərinə qədər "Bu qayıdış müstəqilliyimizi xilas edə bilər" məzmununda bir material hazırla və efirdə özün oxu!" Mən materialı hazırladım və "Bu qayıdış müstəqilliyimizi xilas edə bilər" əvəzinə "xilas edəcək" yazdım. Mətni oxuyan sədr müavini gülümsündü və "düzəlişimə" etiraz etmədi. Amma Heydər Əliyev ölkədəki siyasi proseslərə çox böyük düzəlişlər elədi.

Sonralar akademik Budaq Budaqov "Xalq qəzeti"nə verdiyi müsahibədə demişdi ki, bizim bu müstəqilliyimizi əvvəlki müstəqillikdən də ağır nəticələr gözləyirdi: "1993-cü il iyunun 9-da türk dünyasının böyük oğlu ulu öndər Heydər Əliyevin xalqın çağırışına səs verərək Bakıya qayıdışı Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi".

Heydər Əliyev Naxıvandan Bakıya gəldiyi günlərdə Gəncədə tökülən qanlar "hələ soyumamışdı". Amma Azərbaycan əhalisi artıq iqtidardakıların hansı qabiliyyətin sahibi olduğunu yaxşı başa düşmüşdü. Ona görə də AXC-Müsavat cütlüyü 1993-cü ilin yayında baş verən hadisələr zamanı ictimai dəstəkdən tamamilə məhrum olmuşdu. Hamının ürəyində həmin dövrdəki hakimiyyətə qarşı dərin nifrət kök salmışdı. Hətta nifrət o dərəcədə güclü idi ki, xalq o dövrdən indiyədək keçirilən bütün seçkilərdə həmin düşərgəyə birmənalı olaraq "yox" deyir.

Ulu öndər sonralar həmin prosesləri belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Prezident Kitabxanasının elektron resurslarında oxuyuruq ki, Heydər Əliyev1993-cü il iyunun 9-da muxtar respublikadan Bakıya qayıtmaqla xalqın ölməkdə olan ümidlərini özünə qaytardı. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Ali Sovetin 1993-cü il iyunun 15-də keçirilən sessiyası parlamentin ən gərgin müzakirələr gedən, fikirlərin ən çox haçalandığı və vaxt etibarilə ən uzun çəkən iclası oldu. Xalqın iradəsini ifadə edən deputatlar böyük səs çoxluğu ilə dahi rəhbər Heydər Əliyevi Ali Sovetin Sədri seçdilər.

Beləliklə, Heydər Əliyevin həmin qayıdışının ən böyük nəticəsi Azərbaycanın dövlət müstəqilliyinin qorunması, əbədiləşdirilməsi oldu. Sonra isə onun siyasi varisi olan Prezident İlham Əliyev xalqımızı dəfələrlə mühüm nailiyyətlər, başlıcası isə faşist Ermənistanı üzərindəki şanlı Qələbə ilə sevindirdi.

Müstəqilliyin qorunmasından danışarkən əlavə edək ki, dövlət başçımız Yeni Azərbaycan Partiyasının ötən il martın 5-də keçirilmiş VII Qurultayında demişdir: "Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq… Beləliklə, bir çox hallarda dediyim kimi, bugünkü qurultayı da bu sözlərlə yekunlaşdırmaq istərdim: "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***